# HEYDƏR ƏLİYEV: AZƏRBAYCANÇILIQ İDEOLOGİYASININ VƏ MULTİKULTURALİZMİN İDEYA-NƏZƏRİ PRİNSİPLƏRİNİN DİALEKTİKASI

**Nərminə Qasımova**
*0000-0002-9790-0018, ADNSU-nun*
*“Humanitar fənlər” kafedrasının müəllimi. f ü.f.d.*
*narmin_aa@mail.ru*

## HAYDER ALIYEV: THE IDEOLOGY OF AZERBAIJANISM AND DIALECTIC OF IDEOLOGICAL PRINCIPLES OF MULTICULTURALISM

**Narmina Qasimova**

**Summary**

In this chapter, mainly, the study and analysis of multiculturalism from the philosophical aspect were carried out. In the first paragraph of the first chapter of the research work, the philosophical-cultural aspects of the issue of multiculturalism, the role of the search and revelation and activation of new development vectors of modern society in the determination of national-cultural, political models that respond to modern interactions were analyzed. In this paragraph, the importance of the relevance of the philosophical discourses of multiculturalism in the contexts of multiculturalism and tolerance in the globalized world was scientifically explained. It was studied that the philosophy of multiculturalism and tolerance includes the principles of cooperation and mutual respect of different peoples in terms of ideas, that it is a rightly chosen direction in politics and a political course that leads the state to development, peaceful prosperity and stability.

Here it is especially emphasized that there have always been different approaches to multiculturalism. As a theoretical-abstract image of a multicultural society, a number of European states have prepared the conception of socio-cultural security. Creation of great opportunities for national minorities in all spheres should not be at the expense of violating the rights of indigenous peoples. National ideology should always be in the front. Only on the condition of preserving national values and traditional norms, certain rights can be granted to other minorities. The main socio-philosophical conception of multiculturalism is the legality and moral unification of different cultures in a peaceful way. The implementation of the conception of multiculturalism follows a policy of avoiding conflicts for the sake of the interests of individuals and groups.

**Key words**: national ideology, azerbaijanism, multiculturalism, policy, national mentalities, identity.

## HEYDƏR ƏLİYEV: AZƏRBAYCANÇILIQ İDEOLOGİYASININ VƏ MULTİKULTURALİZMİN İDEYA-NƏZƏRİ PRİNSİPLƏRİNİN DİALEKTİKASI

**Nərminə Qasımova**

**Xülasə**

Müasir cəmiyyətin əsas fəlsəfi məfkurəsini mədəniyyətlərin qarşılıqlı anlaşması, birgə fəaliyyəti və habelə onların dialoqu təşkil edir. Polietnik cəmiyyətlərin etnik-siyasi münasibətlər sistemində tarazlığın pozulmasına səbəb ola biləcək radikalizm, terrorizm, ekstremizm, dini fundamentalizm və irqçilik aktlarının aktuallaşmaması etnik-siyasi subyektlərə münasibətdə təhlükəsiz gələcəyə hesablanmış kompleks tədbirlərin görülməsini tələb edir. Ümumilikdə, dini, irqi, etnik və mədəni kontekstdə baş verən separatizmin, nifrət və ayrıseçkiliyin əsas səbəbləri özündən başqasını qəbul etməmək, başqa mədəniyyətlərə hörmət etməməkdədir.

Hazırda müasir vətəndaş cəmiyyətində multikulturalizm və tolerantlıq məsələləri identikliklə yanaşı inkişaf etdirilməkdədir. Bu istiqamətdə dünyada baş verən sosial-mədəni və demokratik proseslərdən kənarda qalmayan Azərbaycan Respublikasının apardığı məqsədyönlü fəaliyyət dövlət siyasəti formasında uğurla həyata keçirilir. Davamlı olaraq cəmiyyətdə multikulturalizmin və tolerantlığın işlək platformaya çevrilməsi istiqamətində aparılan uğurlu dövlət siyasəti seçilmiş mövzunun aktuallığını bir daha təsdiq edir.

**Açar sözlər:** milli ideologiya, azərbaycançılıq, multikulturalizm, siyasət, milli dəyərlər, identikləşmə.

# ГАЙДЕР АЛИЕВ: ИДЕОЛОГИЯ АЗЕРБАЙДЖАНСТВА И ДИАЛЕКТИКА ИДЕОЛОГИЧЕСКИХ ПРИНЦИПОВ МУЛЬТИКУЛЬТУРАЛИЗМА

**Нармина Гасымова**

**Аннотация**

В статье рассматриваются основы философской идеологии современного общества, которые включают в себя взаимопонимание культур, их совместный диалог.

Неактуализация актов радикализма, терроризма, экстремизма, религиозного фундаментализма и расизма могут привести к дисбалансу в системе этнополитических отношений полиэтнических обществ, поэтому необходимо принятияе комплексных мер, рассчитанных на безопасное будущее по отношению к этнополитическим субъектам.

В целом основными причинами сепаратизма, ненависти и дискриминации в религиозном, расовом, этническом и культурном контекстах являются неприятие других и неуважение к другим культурам.

Все процессы, происходящие в социально-культурной сфере общества, принадлежность человека к какой-либо культуре, его социализация, религиозный выбор составляют начальную ступень формирования личности, его национального самосознания.

В настоящее время в современном гражданском обществе вопросы мультикультурализма и толерантности развиваются наряду с идентичностью.

Азербайджанская Республика не остается в стороне от происходящих в мире социокультурных и демократических процессов, она целенаправленно двигается в этом направлении, успешно реализуется в форме государственной политики.

Успешная государственная политика, направленная на превращение мультикультурализма и толерантности в рабочую платформу в обществе, еще раз подтверждает актуальность выбранной темы.

**Ключевые слова: национальная идеология**, азербайджанство, мультикультурализм, политика, национальные ценности, идентичность

**Giriş**. Görkəmli dövlət xadimi, müstəqil Azərbaycanın qurucusu Heydər Əliyev tərəfindən inkişaf etdirilən azərbaycançılıq ideologiyası milli dövlətçiliyimizin fəlsəfi-sosoloji nəzəriyyəsinin sosial-mədəni və etno-siyasi aspektlərinin məcmusudur. Müstəqil dövlətçiliyimizin bütün sahələr üzrə vacib prinsipləri milli ideologiyamızda öz əksini tapmışdır. Cəmiyyətimiz birmənalı olaraq azərbaycançılıq məfkurəsinin ətrafında sıx birləşmişdir.

Azərbaycanın milli dövlətçiliyi cəmiyyətin hər bir üzvünə hüquqi, dini, mədəni azadlıq bəxş etməklə, azərbaycançılıq ideologiyasının prinsiplərinə sadiq olduğunu sübut edir. Bu ümummilli ideologiya Azərbaycanda demokratik vətəndaş cəmiyyətinin qurulmasının təməl prinsiplərini özündə əks etdirir. Bu gün Azərbaycan dövləti milliyətindən asılı olmayaraq öz vətəndaşlarının təhlükəsizliyini yüksək səviyyədə qoruyur və onlıarın sosial rifahının təminatçısıdır.

Azərbaycanda multikulturalizmin meydana gəlməsində və formalaşmasında obyektiv və subyektiv səbəblərlə yanaşı milli ideya mühüm rol oynamışdır. Multikulturalizm dəyərləri azərbaycançılığın əsas konponentidir **[5].**

Azərbaycançılıq konsepsiyası Azərbaycanın müasir sivilizasiyalar sistemində özünütəsdiqi, milli mənliyin identikliyini qoruyub saxlayan ideoloji-fəlsəfi təlimdir. “Heydər Əliyev zəmanəsinin böyük filosofu və mütəfəkkiri idi. Onun formalaşdırdığı azərbaycançılıq ideyası milli-siyasi şüurun təməl prinsipi kimi dünya azərbaycanlılarının həmrəyliyi üçün möhkəm zəmin yaratmışdır. Ulu öndərin milli dirçəliş ideyası tezliklə əməli siyasət müstəvisinə keçərək strateji dövlət siyasətinə çevrimişdir**”[2].**

Bu məfkurə Azərbaycanda vahid birlik və vahid sosium formalaşdırır. Neokonservatizmin milli forması kimi azərbaycançılıq milli ideolojiyanın əsasıdır. Milli ideologiyanın formalşdırdığı milli özünüqoruma şüuru milli dəyərlərimizi hər cür təhlükədən qoruya bilir**.**

“Azərbaycançılıq ideologiyası mühüm funksional elementlərlə zəngindir. Bunların mahiyyəti ölkəni mənəvi və fiziki baxımdan zəiflətmək cəhdlərindən qorumaqdır. Bu ideologiya unitar, hüquqi və demokratik dövlət kimi Azərbaycanın möhkəmlənməsinə və inkişafına yönəlmişdir. Bu gün “azərbaycançılıq” milli həyatın, konfessiyaların harmoniyasının çoxəsrlik ənənəsi, ölkədə yaşayan

bütün millətlərin və etnik qrupların qardaşlığı, əlaqəsi və təsirinin tarixi, onların ümumi taleyi və müstəqil Azərbaycan Respublikasının bütövlüyü uğrunda birgə mübarizənin tarixi təcrübəsidir" **[3].**

Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində ölkəmizi dağılmaq təhlükəsindən xilas edən azərbaycançılıq nəzəriyyəsi hər bir vətəndaşın marağını müdafiə etdi. O, Azərbaycan ərazisində yaşayan milli azlıqların hüquq və azadlıqlarının, o cümlədən etnik-mədəni, dini dəyərlərinin qorunmasını demokratiyanın mühüm prinsipi olan əsas insan hüquq və azadlıqları kontekstində görürdü. Ulu öndərin rəhbərliyi ilə, nəhayət ki, inkişaf yoluna çıxmış Azərbaycan Respublıikası, onun qeyd etdiyi kimi, "dinindən, dilindən, irqindən asılı olmayaraq Azərbaycanın bütün vətəndaşlarının eyni hüquqlara malik" olmalarını təmin etməli idi **[4].**

Ulu öndər öz uzaqgörən, müdrik siyasəti ilə əsrlər boyu formalaşan çoxmədəniyyətlilik ənənəsini inkişaf etdirərək, onu keyfiyyətcə yeni mərhələyə qaldırdı. Birmənalı şəkildə qeyd etmək olar ki, Ulu öndər Azərbaycan multikulturalizminin siyasi banisidir. Heydər Əliyevin təşəbbüsü və göstərişi ilə milli azlıqların ədəbiyyat, mədəniyyət, dil, tarix və adət-ənənələrinin qorunub saxlanmasına, inkişaf etdirilməsinə qanuni zəmin yaradıldı. Azərbaycan Respublikası Konstitusiyasının 18, 21, 25, 44, 48, 127-ci maddəsi ilə mənşəyindən, irqindən, dinindən və dilindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarına hörmət təmin olundu [1].

Qloballaşan dünyanın kataklizmlərindən sığortalanmaq üçün bu siyasət ən düzgün və alternativsiz yoldur. Azərbaycançılıq, multikulturalizm və dini dözümlülük Azərbaycanın malik olduğu ideoloji zənginliklərdir. Müsair demokratik Azərbaycan dini tolerantlığın sübutudur. Multikulturalizmin və tolerantlığın həyat tərzinə çevrildiyi Azərbaycanda üç səmavi dinin (yəhudilik, xristianlıq, islam) dözümlülük şəraitində birgə fəaliyyəti tarixi ənənələrin müasir dövrdə hüquq müstəvisində təzahürüdr. Sosial hadisə olan multikulturalizm Azərbaycan cəmiyyətinin nümunəvi birgəyaşayış normaısına çevrilmişdir. Beynəlxalq aləmdə Azərbaycanın siyai nüfuz qazanmasında azərbaycançılıq və multikulturalizm siyasi doktrinaları tarixi əhəmiyyət daşımaqla bərabər mədəniyyətimizin dünyaya çatdırılmasında müstəsna rol oynayır.

Müasir cəmiyyətin sosial və intellektual inkişafı müasir dünyada baş verən siyasi proseslərə birbaşa təsir etmək mexanizminə malikdir. Bu baxımdan inkişaf etmiş cəmiyyətlər dünyada sülhün bərqərar olmasına və beynəlxalq münasibətlərin müsbət məcrada inkişafına böyük təsir göstərir. Multimədəniyyətlərin toplusundan ibarət olan müasir cəmiyyətlər kulturaloji kontekstdə düzgün siyasi kurs seçməklə, sabit inkişafa nail ola bilərlər. Dünya miqyasında mədəniyyətlərarası dialoqun qurulması və coxmədəniyyətlilik, çoxkonfessiyalılıq fonunda dözümlülük mühitinin yaradılması prinsiplərinə əsaslanan humanist dünyagörüşü olan multikulturalizm fəlsəfi nəzəriyyəsi sivil cəmiyyətlərin ideoloji sahədə yürütdükləri siyasətə çevrilməkdədir. Münaqişə və böhranların dinamikasının artması, qlobal və regional xarakterli problemlərin müasir dünya üçün səciyyəvi hal alması, hazırda müxtəlif ekzistensiyalara intolerant münasibət sivilizasiyalararası dialoqun qlobal cəmiyyətdə təşəkkülünün vacibliyini önə çəkir.

Bu gün Azərbaycan dünyanın nadir ölkələrindəndir ki, burada ayrı-ayrı millətlərin, xalqların, dinlərin nümayəndələri bir ailə kimi yaşayır. Multikulturalizm Azərbaycanda əsrlərdən bəri formalaşan, eyni zamanda bədii, psixoloji-mənəvi müstəvidən kənara çıxmayan dəyərlər toplusu kimi mövcud olmuşdur. Multikulturalizm polietnik cəmiyyətdə vətəndaş millətçiliyi və daxili birliyə malik olmuş Azərbaycan cəmiyyətinin ətraf mühiti qavraması üsuludur.

Müstəqil Azərbaycanda Heydər Əliyev siyasətinin uğurlu davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev multikulturalizmi dövlət siyasətinin prioriteti elan edərək, bu prosesi ardıcıl olaraq davam etdirir. Nəticədə ölkəmizin dünya dövlətlər birliyində mövqeyi möhkəmlənir və Azərbaycan beynəlxalq arenada nikbin multikulturalizmin əsas mərkəzlərindən kimi tanınır. Heydər Əliyevin banisi olduğu müasir Azərbaycan dövləti bu gün regionda söz sahibi olan dövlətdir. Ölkəmiz həm də qlobal enerji təhlükəsizliyində aparıcı rol oynayır.

**Nəticə.** Heydər Əliyevlə başlanan, İlham Əliyevlə davam etdirilən inkişaf siyasətinin mərkəzində dayanan əsas məsələlərdən biri torpaqlarımızın işğaldan azad edilməsi idi. Düzgün və qətiyyətli siyasət, Azərbaycanın yüksəlişi, beynəlxalq mövqelərini daha da möhkəmləndirməsi nəticə etibarilə torpaqlarımızın da işğaldan azad olunmasını təmin etdi. Vətən müharibəsində qazanılan qələbə

Azərbaycanın tarixinin ən qüdrətli dövləti olmasının praktik təsdiqidir. İlham Əliyevin bildirdiyi kimi, Azərbaycan Ulu Öndərin etdiyi vəsiyyət əsasında milli-mənəvi dəyərlər üzərində qurulur, inkişaf edir. Bu inkişaf hər bir azərbaycanlının qürur mənbəyidir. Qarabağ və Şərqi Zəngəzurda aparılan nəhəng bərpa və yenidənqurma işlərinin timsalında dünya bir daha Azərbaycanın qüdrətinə, iradəsinə şahidlik edir. Bütün bunlar bir daha təsdiq edir ki, bu siyasi kurs Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevrilərək milliyətindən və dini mənsubiyyətindən asılı olmayaraq hər bir vətəndaşın Vətənidir. Müstəqil Azərbaycanda uğurla həyata keçirilən multikulturalizm siyasəti azərbaycançılıq ideologyasının idey-nəzəri prinsipləri ilə harmoniya təşkil edərək dialektik vəhdətdədir.

**İstifadə edilmiş ədəbiyyat siyahısı**


1. AR Konstitutsiyası, Bakı, 1995
2. Əliyev İ. Azərbaycanıma inanıram, s.75, Bakı, 2007
3. Abdullayev K. Ulu Öndər Azərbaycan multikulturalizminin siyasi banisidir. www.azerbaijan-news.az>mobil, “Azərbaycan” qazeti, 2014-07-23
4. Multikulturalizmə giriş. Ali məktəblər üçün dərslik, s.412, Bakı, 2019
5. Öмərov V. Azərbaycançılıq milli ideyası dövlətçilik ideologiyasıkimi,http://sesqazeti/az/news/kivdf/554227.html 15.07.2015